**Tural Vətən oğlu Məmmədov**

**UOT: 338.48; JEL: Q26**

# Naxçıvan Muxtar Respublikasında turizmin real imkanları və perspektivləri

***Xülasə***

*Məqalə Naxçıvan Muxtar Respublikasının turizm potensialının mövcud vəziyyətinin, turizmin ayrı-ayrı növlərinin (kənd, istirahət, müalicə-sağlamlaşdırma) inkişafı üçün mövcud olan əsas məsələlərin tədqiqinə həsr edilir.*

***Açar sözlər:*** *turizm və ekskursiya marşrutu, turizm resursu, turizm infrastrukturu, Ağız marketinqi, kənd turizmi, tarixi-mədəni turizm, dağ-ektremal turizm*

## Giriş

Məqalədə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafının vəziyyəti haqqında məlumat verilmişdir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün müəyyən tədbirlər görülür. Bu tədbirlərdən biri də qeyri-neft sektorunun ən gəlirli sahələrindən sayılan turizmin inkişafıdır. Turizmi Azərbaycanın hər yerində inkişaf etdirmək üçün Dövlət Proqramı qəbul edilmişdir. Dövlət Proqramının qəbulu ölkənin hər yerində xüsusilə də Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına təkan vermişdir. Turizmin inkişafı Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında mühüm rol oynayır.

## Naxçıvan Muxtar Respublikasının turizm potensialı

Naxçıvan Muxtar Respublikasında turizmin bütün növlərinin inkişafı üçün güclü potensial var. Turistlərin müxtəlif regionlardan və ölkələrdən olması onların tələbatlarının çox müxtəlif və çoxşaxəli olması ilə fərqlənir. Naxçıvanda turizm marşrutları boyu turistlərin maraqlarını cəlb edəcək çoxlu yerlər vardır. Müasir turizmin inkişafı üçün əsas məsələ turistlərin maraqlı və mənalı səyahəti üçün müəyyən istiqamətlərdə təşkil olunmuş turizm və ekskursiya marşrutlarının imkanları ilə sıx bağlıdır. Turizm və ekskursiya marşrutlarının yaxşı təşkil olunması turizmin təşkilinin ən əsas, yekun mərhələsidir. Əgər turizm üçün yol, mehmanxana və başqa əsas vacib infrastruktur məsələləri həll olunsa, bundan sonra regionda turizmin inkişafı üçün məhz cəlbedici turizm marşrutları yaradılması prioritet məsələ olmalıdır. Bu həlledici məsələdə isə Naxçıvan Muxtar Respublikasının kifayət qədər resursu vardır. Bu baxımdan turizm marşrutları üzərində işləyərkən Naxçıvanın nə qədər dəyərli sərvətləri olduğunu görürük. Naxçıvan Muxtar Respublikasında həyata keçirilmiş tur günlərinin sayı 2009-cu ildə 300 adam-gün olduğu halda, bu göstərici 2010-cu ildə 102274, 2011-ci ildə 106280, 2012-ci ildə 117054, 2013-cü ildə 117281 və 2014-cü ildə isə 117449 adam-gün təşkil etmişdir. (6)

Naxçıvana səyahət edən çox sayda yerli və əcnəbi turist vardır. Naxçıvan özünün turizm cazibədarlığı və imici baxımından bir çox region ölkələrini geridə qoymuşdur. Naxçıvan Beynəlxalq Hava Limanı vasitəsilə Bakı, İstanbul, Moskva və Gəncə şəhərlərindən, habelə qonşu ölkələrlə 24 saat iş rejimində olan gömrük-keçid məntəqələri ilə dünyanın hər yerindən bu diyara turistlər gələ bilirlər. Naxçıvanın İran və Türkiyə ilə həmsərhəd olması bu ölkələrdən gələn turistlərin sayına müsbət təsir edir. Türkiyə Respublikası və İran İslam Respublikası kimi turizm potensialı böyük olan ölkələrlə həmsərhəd olması, Böyük İpək Yolunun üzərində yerləşməsi turizmin muxtar respublikada inkişafına şərait yaradan əsas amillərdəndir. Burada turizmin tarixi-mədəni, ekoloji və kənd yaşıl turizm, ziyarət, müalicə, etnik, dağ-ektremal, dini və digər növlərinin inkişaf etdirilməsinə şərait vardır. Təkcə hava nəqliyyatı ilə deyil, həm də avtomobil nəqliyyatı ilə də bu ölkələrdən muxtar respublikaya çoxlu turistlər gəlir. Naxçıvanda yaradılmış sabitlik və təhlükəsiz həyat şəraiti turistlərin



© *Tural Vətən oğlu Məmmədov AMEA İqtisadiyyat İnstitutu, elmi işçi, E-mail: tural.memmedov81@mail.ru*
© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

burda özünü rahat hiss etməsinə imkan verir. Naxçıvana gələn turistlər, əsasən, müalicə və ziyarət, əyləncə və gəzinti, işgüzar görüşlər və tanışlıq məqsədilə buraya səyahət edirlər. Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi onu turizmin bütün növlərinin inkişafına təkan vermişdir. Gələn turistlərin ölkə və sosial mənşəyi isə dövlət başçılarından tutmuş sadə vətəndaşlara qədər genişdir.

Muxtar Respublikada Azərbaycanın nadir fauna və florası məskunlaşmışdır. Dünyada olan 11 iqlim qurşağından yeddisinə Naxçıvan Muxtar Respublikasında rast gəlinir. Muxtar respublika ərazisində 3 mindən yuxarı bitki növü, 350-dən çox heyvan növü vardır. Azərbaycan Respublikasında qeydə alınmış 366 quş növünün yarıdan çoxu 247-si muxtar respublika ərazisində məskunlaşmışdır. Muxtar respublikanın kəndlərinin çox hissəsi dağlıq ərazilərdə, çay vadilərində yerləşir. Bu baxımdan da Naxçıvanda ekoloji və onun bir qolu olan kənd yaşıl, dağçılıq turizmi inkişaf etdirilir. Geniş ərazi, münbit torpaq, saf su, təmiz hava, bol Günəş – bunlar zəngin təbiət sərvətlərdir. Naxçıvan Muxtar Respublikasının təbii bitki ehtiyatlarının böyük hissəsi – 700-ə yaxın növü dərman bitkiləridir. Azərbaycanın mineral su ehtiyatının 60 faizi muxtar respublikanın payına düşür. Burada 250-yə yaxın mineral su mənbəyi qeydə alınmışdır. Bu mineral suların bir hissəsi müalicə məqsədilə istifadə edilir (Badamlı, Sirab, Darıdağ, Böyrək suyu və s.). Eyni vaxtda 350 xəstəni qəbul etmək imkanına malik Duzdağ Fizioterapiya Mərkəzi və Culfa rayonundakı Darıdağ Arsenli Su Müalicəxanası bir çox ölkələrdən gələn yüzlərlə turistin üz tutduğu əsas müalicə mərkəzlərindəndir. Bir sözlə, müalicə turizminin inkişafı üçün potensial böyükdür. Naxçıvanın tarixinin min illərlə ölçülməsi, burada dünya memarlığının incisi sayılan tarixi memarlıq abidələrinin olması, zəngin mədəni irsi bu diyarı xarici turistlər üçün əhəmiyyətli edir. Möminə xatın, Yusif Küseyiroğlu türbələri, Qarabağlar Memarlıq Kompleksi, Xanəgah Abidə Kompleksi, adı Nuh Peyğəmbərin gəmisi ilə bağlanan Gəmiqaya daşüstü yazıları, əfsanəvi İlanlı dağ, abidələrlə zəngin olan qoruq-şəhər Ordubad, haqqında müqəddəs "Qurani-Kərim"də bəhs edilən Əshabi-Kəhf ziyarətgahı, 5000 ildən çox yaşı olan Naxçıvan şəhəri, qədim tikililər, qalalar, yaşayış yerləri və nekropollar, günümüzə qədər qorunub saxlanılmış xalq sənəti nümunələri turistlərin diqqətini daha çox cəlb edir. Buraya Naxçıvan diyarının zəngin folklorunu, musiqi və təsviri sənətini, ədəbiyyatını da əlavə etsək, tarixi-mədəni turizmin inkişaf etdirilməsi üçün necə böyük imkanların olduğunun şahidi olarıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən qeydə alınmış 1202 daşınmaz tarix-mədəniyyət abidəsinin 57-si dünya əhəmiyyətli, 500-ə yaxını ölkə əhəmiyyətlidir. Möminə xatın türbəsi, Xan sarayı, Zaviyə-mədrəsə binası, Naxçıvan Came məscidi, Nuh Peyğəmbərin məzarüstü türbəsi, Şərq hamamı, Naxçıvan şəhərindəki və Şərur rayonundakı imamzadələr, Ordubad şəhərindəki Qeysəriyyə (Zorxana), qədim hamam, yeraltı məbəd, Culfa rayonu ərazisindəki Əshabi-Kəhf ziyarətgahı, Xanəgah Abidə Kompleksi, "Əlincəqala" tarixi abidəsi bərpa olunub. Hazırda Gülüstan türbəsinin bərpası davam etdirilir.

Tarixi-mədəni turizmin inkişafında turizm nümayişi obyektlərinin özünəməxsus yeri var. Bu baxımdan Naxçıvan Muxtar Respublikasını "muzeylər diyarı" da adlandırmaq olar. Muxtar respublikada 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir ki, onların 16-sı 1995-ci ildən sonra yaradılmışdır. 1 təbiət qoruğu, 1 milli park, 3 təbiət yasaqlığı, 1 ziyarətgah kompleksi, 3 teatr, 2 filarmoniya, banklar, ticarət mərkəzləri və sair turizmin inkişafında mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikasında turistlərin komfortlu istirahəti üçün müasir mehmanxana, yol-nəqliyyat, restoran şəbəkəsi mövcuddur. Həmçinin fasiləsiz elektrik enerjisi, sürətli internet, müasir tələblərə cavab verən telefon rabitəsi turizm infrastrukturunun vacib elementləridir. Muxtar respublika ərazisindəki birdəfəlik tutumu 1400 nəfərdən çox olan 20-dən artıq mehmanxanada gələn turistlərin rahat gecələməsi, burada



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

işgüzar görüşlərin keçirilməsi üçün müasir şərait yaradılmışdır. Hazırda Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat turizm marşrutları fəaliyyət göstərir. Muxtar respublikanın turizm potensialının təbliği istiqamətində ardıcıl iş aparılır. Naxçıvanın tarixi, mədəniyyəti, turizm marşrutları, mətbəxi, adət-ənənələri ilə bağlı onlarla adda reklam-informasiya materialları hazırlanmış, reklam çarxları və filmlər çəkilmişdir. (1, 320-328).

**Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı**

Turizmin Naxçıvan Muxtar Respublikada inkişafı 2009-cu ildən bəri çox sürətlə gedir. Əhaliyə satılmış turizm yollayışı blanklarının sayı 2009-cu ildə 30 vahid olduğu halda bu göstərici 2010-cu ildə 2763 vahid olmuş, 2011-ci ildə 3073 vahid, 2012-ci ildə 3338 vahid, 2013-cü ildə 3485 vahid və 2014-cü ildə isə 3555 vahid olmuşdur. Bu rəqəmlərdən də görünür ki, turizm yollayışı blanklarının satışında çox sürətli artım müşahidə olunur. 2010-cu ildə 2009-cu ilə nisbətən turizm yollayışı blanklarının sayının artımı 92,1 dəfə olmuşdur. Əhaliyə satılmış turizm yollayışı blanklarının dəyəri 2009-cu ildə 11 min manat olduğu halda, bu göstərici 2010-cu ildə 5690,2 min manat, 2011-ci ildə 5733,2 min manat, 2012-ci ildə 6175,6 min manat, 2013-cü ildə 6384 min manat, 2014-cü ildə 6502 min manat təşkil etmişdir. Bu da turizmə getdikcə marağın artmasını göstərir. Bunun nəticəsində turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin əldə etdiyi ümumi gəlirin artımı da buna müvafiq artmışdır. Naxçıvan Muxtar Respublikasında turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin əldə etdiyi ümumi gəlir 2009-cu ildə 17,4 min manat olduğu halda, bu göstərici 2010-cu ildə 3908,2 min manat, 2011-ci ildə 4127,6 min manat olmuş, 2012-ci ildə isə 4274,5 min manat, 2013-cü ildə 4290,8 min manat, 2014-cü ildə 4310,7 min manat təşkil etmişdir. Gəlirin ildən-ilə artmasına səbəb mehmanxana və mehmanxana tipli müəssisələrdə olan gecələmələrin sayının artmasıdır. Əgər bu gecələmələrin sayının artması olmasa idi, gəlirin artımı da bu qədər olmazdı (6). Ona görə də regionun turizm ehtiyatlarının daha dərindən öyrənilməsi və onların əsasında xidmətlər zərfi yaradılması günün tələbidir. Naxçıvanda bütün ilboyu həm yerli, həm də əcnəbi turistlərin marağını cəlb edəcək xeyli sayda turizm marşrutları vardır. Ancaq bu marşrutların sayının daha da artırılması və bu istiqamətlərdə satışa çıxarılan yollayışların turistlərə təqdim olunması da mümkündür. Muxtar respublikanın dünya turizm mərkəzləri arasında tanınması üçün daha çox və rəngarəng xidmətlər təşkil olunduqca diyarımız dünyanın hər yerindən gələ biləcək tələbkar, eyni zamanda səxavətli turistlər üçün cazibədar olacaqdır.

Mehmanxana və mehmanxana tipli müəssisələrdə xarici ölkə vətəndaşları üzrə gecələmələrin sayı 2009-cu ildə 32015 vahid olduğu halda, bu göstərici 2010-cu ildə 41906, 2011-ci ildə 53798, 2012-ci ildə 57800, 2013-cü ildə 61552 və 2014-cü ildə isə 61733 vahid təşkil etmişdir. Mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin sayı 2009-cu ildə 43667 vahid olduğu halda, bu göstərici 2010-cu ildə 56108, 2011-ci ildə 78729, 2012-ci ildə 84420, 2013-cü ildə 85897 və 2014-cü ildə isə 86191 vahid təşkil etmişdir. Mehmanxana və mehmanxana tipli müəssisələrdə 1-3 gün müddətinə yerləşdirilmiş şəxslərin sayı 2009-cu ildə 25591 nəfər, 2010-cu ildə 35472, 2011-ci ildə 49429, 2012-ci ildə 54661, 2013-cü ildə 56512 və 2014-cü ildə 56777 nəfər olmuşdur. Mehmanxana və mehmanxana tipli müəssisələrdə 4-7 gün müddətinə yerləşdirilmiş şəxslərin sayı 2009-cu ildə 1836 nəfər, 2010-cu ildə 2428, 2011-ci ildə 3858, 2012-ci ildə 4000, 2013-cü ildə 2988 və 2014-cü ildə 2868 nəfər olmuşdur. Mehmanxana və mehmanxana tipli müəssisələrdə 8-28 gün və daha çox müddətə yerləşdirilmiş şəxslərin sayı 2009-cu ildə 332 nəfər, 2010-cu ildə 267, 2011-ci ildə 382, 2012-ci ildə 400, 2013-cü ildə 375 və 2014-cü ildə 429 nəfər olmuşdur. Naxçıvan Muxtar Respublikasına gələn-gedən turistlərin sayı haqqında məlumata nəzər yetirək.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Turistlərin sayı haqqında məlumat (nəfər)**

| Göstəricilər | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Gələn turistlər | 93930 | 140895 | 219118 | 225914 | 287634 | 343139 | 358963 | 370638 | 378102 | 389823 |
| Turist qismində səyahətə gedən sakinlər | 47382 | 69714 | 85142 | 88603 | 94529 | 103786 | 109351 | 111879 | 113568 | 117654 |

Mənbə: Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi

Cədvəldən də görünür ki, Naxçıvan Muxtar Respublikasına gələn turistlərin sayı 2006-cı ildə 93930 nəfər olduğu halda, 2015-ci ildə 389823 nəfər olmuşdur. Son on il ərzində 4,2 dəfə, yaxud 415% artım müşahidə olunmuşdur. Naxçıvan Muxtar Respublikasından başqa yerlərə turist qismində səyahətə gedən insanların sayı 2006-cı ildə 47382 nəfər olduğu halda, 2015-ci ildə 117654 nəfər olmuşdur. Son on il ərzində səyahətə gedənlərin sayında 2,5 dəfə yaxud 248 faiz artım müşahidə olmuşdur. Bu rəqəmlərdən də görünür ki, illər üzrə artım tempi sürətlə gedir və bu artım tempinə əsasən gələcək inkişaf qənaətbəxş sayıla bilər. Turizm marşrutları boyu görməli yerlər turistlərdə dərin təəssürat doğura biləcək qeyri-adi bir cazibə gücünə malikdirlər. Belə ehtiyatların sayı isə minlərlədir. Bu ehtiyatlara və göstərilən servislərdən istifadəyə əsaslanan tələbatların əvvəlcədən qiymətləndirilməsi isə turizm xidməti fəaliyyəti ilə məşğul olan sahibkarların hazırladıqları biznes planların əsas məzmununu təşkil edir. Burada hər kiçik detalın xüsusi əhəmiyyəti vardır. Misal üçün, turizm marşrutu planlayarkən Əshabi-Kəhfə gəlmiş ziyarətçilərə peşəkar foto servisi, yaxud Ordubada və ya Batabata səyahət edəcək turistlərə lüks mikroavtobus kirayəsinin təşkili kimi xırda, lakin vacib məsələlər nəzərdən qaçmamalıdır.



Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına təkan verəcək təbliğata ehtiyac vardır. Turizm tanıtım, reklam və təbliğat işlərinə çox həssasdır. Bu muxtar respublikanın həyatında çox vacib məsələlərdən biridir. Naxçıvanın turizm imkanlarının təbliği məqsədilə proqram hazırlanması, müxtəlif layihələrin həyata keçirilməsi və gənclərin sosial şəbəkələrdə muxtar respublikanın turizm potensialının təbliğində fəallığının artırılması üçün müəyyən işlər görülür. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı və təbliği üçün yeni Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytı fəaliyyətə başlamışdır. Bu sayt vasitəsi ilə Naxçıvana səyahət etmək istəyən və Naxçıvanın görməli yerləri haqda məlumat almaq istəyən şəxslər müəyyən məlumat əldə edə bilərlər. Turizm iqtisadiyyatın mühüm bir sahəsi, beynəlxalq turizmin gəlmə tipi isə ölkə ixracatının mühüm bir hissəsidir. Naxçıvan Muxtar Respublikasında turizm sahibkarlığının inkişaf etdirilməsi, özəl sektor tərəfindən real təkliflər ortaya qoyulması, turizmlə məşğul olan sahibkarlara müvafiq tövsiyələr verilməsi, biznes-planların işlənilməsinə və onların tətbiqinə çalışılması, Naxçıvanı tanıdan suvenirlərin, hədiyyəlik xatirə əşyalarının hazırlanması və satışının diqqətdə saxlanılması, ölkədə və xaricdə təşkil olunan müxtəlif sərgilərdə Naxçıvanın turizm potensialının nümayiş etdirilməsi tapşırığı verilib. Muxtar respublikada qalatipli yaşayış yerlərində ən çox diqqətçəkən amillərdən biri də ərazidə qala-şəhərlərin mövcudluğudur. Arxeoloji tədqiqatlar göstərir ki, qala-şəhərlərin formalaşması beş min il bundan əvvələ gedib çıxır və bu cür tikililər, əsasən, çay vadilərində, ticarət və sənətkarlığın daha sıx yerləşdiyi ərazilərdə salınıb. Bu fakt özlüyündə dünya, o cümlədən Şərq sivilizasiyasının əsas ocaqlarından biri kimi Naxçıvan torpağının möhtəşəm keçmişindən xəbər verir. II Kültəpə, Naxçıvan, Şahtaxtı, Qızqala, Qızılburun, Qazançıqala kimi qədim qala-şəhərlərin mövcudluğu haqqında bu gün əlimizdə tutarlı faktlar var. Bu faktlar isə Azərbaycanın, ümumilikdə isə Cənubi Qafqazın və Yaxın Şərqin tarixi-mədəni keçmişinə işıq tutmaqda əvəzolunmaz rol oynayır. Daha çox öyrənilmə və təbliğolunma nöqteyi-nəzərindən bu kimi abidələr Naxçıvanın turizm potensialında

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

müstəsna əhəmiyyətə malikdir. Mədəni turizmin inkişafı da dünyada məhz bu cür zəngin potensiala malik regionlara xasdır.

**Naxçıvan Muxtar Respublikasında inkişaf edən turizm növləri**

Naxçıvan Muxtar Respublikasında bir çox turizm növləri kimi kənd turizminin də inkişafı üçün müəyyən şərait vardır. Muxtar respublikamızda kənd infrastrukturunun müasir səviyyədə tamamilə yenilənməsi, kəndlərin abadlığı, təmizliyi və əhali gəlirlərinin artması burada müasir kənd turizminin inkişafı üçün də imkan yaradır. Kənd turizminin təbliğində əsas amil kənddə öz daxili resurslarından istifadə etməklə turistlərin cəlb edilməsidir. Naxçıvan Muxtar Respublikasında kəndlərdə yaradılan şərait kənd turizminin inkişafı üçün baza formalaşdırır. Bunun nəticəsində isə muxtar respublikada bir çox kəndlərdə kənd turizminin yaranması üçün turizm resursları mövcuddur. Kənd turizmi resursları olan kəndlərin sayı həddindən artıq çoxdur. Bura Şahbuz, Babək, Culfa, Ordubad və s. rayonların ucqar kəndləri daxildir. Bunlardan Şahbuz rayonunda yerləşən Bata-bat, Biçənək, Badamlı, Nursu, Kükü, Keçili və s. kəndləri misal göstərmək olar. Bu kəndlərdə yaradılan şəraitə uyğun olaraq burda kənd turizmini inkişaf etdirmək olar. Çünki bu kəndlərdə kifayət qədər turizm potensialı var. Onun yerli kənd təsərrüfatı məhsullarından tutmuş, insanların qonaqpərvərliyi, kəndin füsunkar gözəlliyi kimi xüsusiyyətlərin olması burada kəndin turizm baxımından insanları cəlb etməsinə gətirib çıxarır. Burada təbii kənd məhsullarından istifadə etməklə turizmin inkişaf etdirmək olar. Keçili kəndində bu sahəni inkişaf etdirmək üçün geniş imkanlar və çoxlu şərait mövcuddur. Kənddə son illər infrastruktur yenidən qurulub, yollar abadlaşdırılıb, burada xidmət obyektləri inşa olunub. Keçili kəndində müasir yaşayış evləri tikilib ki, bu evlərdəki otaqlardan birini turistlərə kirayə verməklə kənd sakinləri gəlir əldə edə bilərlər. Keçili kəndindən əlavə Şahbuzun digər kəndlərində də kənd turizmini inkişaf etdirmək üçün turizm potensialı mövcuddur. Məsələn Badamlı kəndində olan bulaqların kənd turizminə müsbət təsir etdiyini açıq aydın görmək mümkündür. Çünki burda çoxlu sərin bulaqlar var ki, bu da bura gələn turistlərin marağına səbəb ola bilər. Onlardan ən məşhurları Yemişandərə, Ordubulağı, Fərəməz bulağı və s.-dir. Bu bulaqların ətrafında turistlər özlərini rahat hiss edə biləcək şərait vardır. Burada turistlərin diqqətini cəlb edəcək Şirandaş şəlaləsi kimi şəlalənin olması Badamlıda kənd turizminin inkişafına təkan verəcək amillərdən biridir. Yerli əhali kəndin təbii sərvətlərindən istifadə edib məhsul istehsal etməkdə, təsərrüfatı genişləndirməkdə maraqlıdır. Badamlıya gələn şəhərli turistlər Şahbuzun bu gözəl kəndində bağlara necə qulluq edilməsi, kənd təsərrüfatı işləri ilə yaxından tanış olmaq fürsəti qazanırlar. Turistlər üçün maraqlı olan kəndin şərqində olan Qaradağın zirvəsinə yürüş keçirmək maraqlı məqamlardan sayılır. Ümumiyyətlə, dağlara yürüş, ətraf relyefin ecazkarlığı ilə tanış olmaq kənd turizminin əsas tərkib elementlərindən biridir. Bu maraqlı yeri görmək istəyən çoxlu turistlər var (5).

Naxçıvan Muxtar Respublikasına gələn turistlərin əksəriyyətinin getdiyi əsas turistik yerlərdən biri də Batabat kəndidir. Burada turistlərin diqqətini cəlb edəcək çoxlu yerlər vardır. Turistlərin marağını cəlb edən əsas yerlərdən biri Batabat gölündə olan "Üzən ada"-dır. Bu tayı bərabəri olmayan göllərdən biridir. Naxçıvana gələn turistlərin əksəriyyəti Naxçıvan-Şahbuz-Batabat turizm marşrutundan istifadə edərək Batabata gəzməyə və istirahətə gedirlər. Yuxarıda verilən statistik rəqəmlərdən də görünür ki, turistlərin sayı ildən-ilə artır. Bu rəqəmlərin artmağına səbəb Batabat kimi turistik yerin olmasıdır. Batabata gələn turistlərin içərisində təkcə qonşu ölkələrdən (Türkiyə və İrandan) gələn turistlər yox, həm də Azərbaycanın digər regionlarından gələn turistlər də üstünlük təşkil edirlər. Çünki Batabat gölündə "Üzən ada"-nın olması bura gələn turistlərin marağına səbəb olur və onların sayının artmasında bilavasitə təsir edir. Çünki təbiətin bu gözəlliyini görən insanlar başqa insanlara



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təbiətin bu sehrini danışmaqla onların da bura gəlməsinə pulsuz reklam etməklə ("ağız marketinqi" vasitəsi ilə) müəyyən pay sahibi olurlar.

Turistlər üçün lazım olan saf iqlim və su ehtiyatı, yaşıllıq, abad kənd şəraiti, insanı cəlb edən təbiət mənzərələri, şəhərdə olduğu kimi, burada da infrastrukturun yüksək səviyyədə olması və qonaqpərvərlik kənd turizmi üçün hazır ehtiyatlardır. Təcrübə göstərir ki, bir çox ölkələrdə turizmin inkişafı kənd yaşıl turizmi ilə başlayıb. Kənd yaşıl turizminin inkişafı yerli sakinlərin təşəbbüskarlığı və qonaqpərvərliyindən də asılıdır. Bu sahənin sosial inkişafın təmin edilməsində üstünlükləri çoxdur. Bunlardan əhalinin maddi rifahının yaxşılaşdırılması, kənd əhalisinin istehsal etdikləri məhsulların satışı, insanlar arasında ünsiyyət və yaxınlaşma, bölgənin adət-ənənəsi, məişətinin öyrənilməsi, təbliği və s. qeyd etmək ola. (3, 220-225). Ordubad rayonunun səfalı kəndlərində də müasir yaşayış evləri tikilib ki, bu evlərdəki otaqlardan birini turistlərə kirayə verməklə kənddə yaşayan sakinlər gəlir əldə edə bilərlər. Qeyd olunub ki, işin düzgün qurulması qədim diyarımızın tarixinin və coğrafiyasının, milli dəyərlərimizin təbliğ olunmasında əhəmiyyətli rol oynaya bilər. Zəngin təbiət, ekoloji cəhətdən təmiz qida məhsulları, şəfalı sular muxtar respublikada ekoloji və kənd yaşıl turizminin inkişafını şərtləndirən əsas amillərdəndir.

Naxçıvan Muxtar Respublikasında olan istirahət turizminin ən yaxşı nümunələrindən biri Şahbuz rayon Ağbulaq kəndində yaradılan istirahət turizm kompleksidir. Bu turizm kompleksində istirahətə gələn turistlərin sayında sürətli artım qeydə alınmışdır. Ağbulaq kəndində turistlərin rahatlığı üçün hər bir şərait vardır. Ağbulaq İstirahət Turizm Kompleksi təkcə Naxçıvan Muxtar Respublikasında istirahət turizmi üçün ən yaxşı turizm obyekti deyil, həm də Azərbaycanda turistləri cəlb edə biləcək istirahət turizm obyektləri içərisində ən yaxşı turizm obyektidir ki, hər şəraiti vardır. Bura gələn turistlərin əksəriyyəti təbiətin gözəlliklərinə heyran olur. İnsanların həmin yer haqqında yaxşı fikirlərinin səslənməsinə, turistlərin sayının artmasına gətirib çıxarır. Yuxarıda göstərilən rəqəmlərdəki turistlərin artım səbəbi də belə yerlərin çox olmasıdır. Naxçıvan Muxtar Respublikasında olan turizm obyektləri haqqında məlumatın geniş yayılmaması yeni tədbirlər görməyə vadar edir, çünki turizmin reklama ehtiyacı vardır. Xüsusilə də Naxçıvan Muxtar Respublika kimi blokada şəraitində olan regionun daha çox ehtiyacı vardır.



**Nəticə**

Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı göstərir ki, tezliklə Muxtar Respublikası təkcə Azərbaycanda deyil, bütün Qafqazda ən inkişaf edən regionlardan birinə çevriləcək. Çünki, Naxçıvan Muxtar Respublikasının çox güclü turizm potensialı vardır. Həm turizmin müxtəlifliyinə görə, həm də turizmin inkişaf tempinə görə region üçün turizm ən vacib sahələrdən birinə çevrilir. Naxçıvanda güclü sənaye sahələrinin olmaması bu sahənin inkişafına marağı daha da artırır. Belə nəticəyə gəlmək olar ki, Naxçıvanda olan turizm potensialı turizmi inkişaf etmiş bir çox ölkələrdə olan turizm resurslarından da çoxdur.

**Ədəbiyyat**

1. Naxçıvan ensiklopediyası. İstanbul-2002, Uniprint Basın San. ve Tic. A.Ş.
2. İsmayıl Hacıyev "Naxçıvan Muxtar Respublikasının ictimai siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişaf" Bakı -2011.
3. İlqar Hüseynov, Nigar Əfəndiyeva "Turizmin əsasları" Bakı – 2007.
4. Əli Əlirzayev "Turizmin iqtisadiyyatı və idarə edilməsi" Bakı -2011.
5. Naxçıvan Muxtar Respublikasının, Naxçıvan şəhəri, "Şərq qapısı" qəzeti 11.08.2016.
6. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsinin materilaları, 2016.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Tural Veten Memmedov***

***Real opportunities and perspects of tourism in the Nakhchivan Autonomous Republic***

***Resume***

*The article on the current state of the tourism potential of the Nakhchivan Autonomous Republic, various types of tourism (rural, rest, health treatment) is devoted to the study of the key factors for the development.*

***Key words:*** *tourism and excursion route, tourism resources, tourism infrastructure, "word of mouth" marketing, rural tourism, historical and cultural tourism, mountain-ektremal tourism*

***Турал Ватан оглу Мамедов***

***Реальные возможности и перспективы туризма в Нахчыванской Автономной Республике***

***Резюме***

*В статья о текущем состоянии туристического потенциала Нахчыванской Автономной Республики, различные виды туризма (сельского, отдыха, здравоохранения) посвящена изучению ключевых факторов развития.*

***Ключевые слова:*** *туризм и экскурсии маршрут, туристические ресурсы, инфраструктура туризма, устный маркетинга, сельский туризм, исторический и культурный туризм, горный екстремалный туризм*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 20.07. 2017.***
***Çapa qəbul olunub: 25.07.2017.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az